# "Qazi müəllimlər"

## Kitabın təqdimat mərasimi keçirilib

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Qafqazinfo" xəbər portalının birgə layihəsi əsasında ərsəyə gələn "Qazi müəllimlər" kitabının təqdimat mərasimi keçirilib. Mərasimdə təhsil nazirinin müşaviri Elnur Nəsibov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva və digər qonaqlar iştirak ediblər.**






Tədbir Dövlət Himninin səsləndirilməsi və Vətən şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Mərasimdə giriş nitqi ilə çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva Vətən müharibəsi iştirakçısı olan müəllimlərin həyat və fəaliyyətini, döyüş yolunu geniş ictimaiyyətə çatdırmağın, günümüzün qəhrəmanlarını təbliğ etməyin vacibliyinə toxunaraq bildirib ki, bu baxımdan "Qazi müəllimlər" kitabı millətin gələcəyi olan uşaqlara bilik və bacarıqlar aşılayan, Vətən üçün layiqli şəxsiyyət yetişdirən müəllim obrazını fərqli tərəfdən təqdim etmək imkanı yaradır.

Mehriban Vəliyeva kitabın təhsilalanlar və təhsilverənlər, eləcə də geniş oxucu auditoriyası üçün məktəb divarları arasında fədakar əməyi ilə seçilməklə yanaşı, həm də cəbhədə, soyuq səngərlərdə Vətən savaşında şücaət göstərən müəllimlərimizi tanımaq, onların nümunəvi fəaliyyətinin öyrənilməsi baxımından istinad mənbəyi olacağını qeyd edib.

Təhsil nazirinin müşaviri Elnur Nəsibov çıxışında təhsil işçilərinin də Vətən müharibəsində xalqımızın hər bir nümayəndəsi kimi Ali Baş Komandanın çağırışına qoşulduğunu, yüzlərlə müəllim və digər təhsil işçilərinin ön cəbhəyə atılaraq düşmənə layiqli dərs verdiyini diqqətə çatdırıb. Elnur Nəsibov "Qazi müəllimlər" kitabını Qarabağ savaşından üzüağ çıxan, zəfər tarixinə öz imzasını atan müəllimlərə olan minnətdarlıq duyğusunun ifadəsi kimi dəyərləndirib və bildirib ki, Təhsil Nazirliyinin prioritetləri sırasında daha vətənpərvər və yüksək bilikli gəncliyin yetişdirilməsi əsas yerlərdən birini tutur. Bu baxımdan qazi müəllimlərin təbliğ olunması mühüm əhəmiyyət kəsb edir.

Mərasimdə çıxış edən "Qafqazinfo" xəbər portalının baş direktoru Elbrus Ərud, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Nar" şirkətinin İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov kitabı Vətən müharibəsi qaziləri ilə bağlı hazırlanmış ilk nümunələrdən biri olaraq yüksək dəyərləndirib, qəhrəman müəllimlərə həsr olunan kitabın gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacağına əminlik ifadə ediblər.

Daha sonra Vətən müharibəsində Şanlı Zəfərin qazanılmasında iştirak edən, döyüş meydanındakı qəhrəmanlıqları ilə vətənpərvərlik dərsi keçən qazi müəllim, Bakı şəhəri 221 nömrəli tam orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Bədəl Hüseynov "Qazi müəllimlər" kitabını onlara verilən dəyərin ən parlaq nümunələrindən biri kimi qiymətləndirib.

Mərasimin sonunda BŞTİ-nin nəzdindəki Uşaq-Gənclər İnkişaf Mərkəzinin xorunun ifasında "Zəfər mahnısı" səsləndirilib.